

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 102 (23.013)

31 may 2018-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Naxçıvanda iftar süfrəsi açılıb







Mayın 29-da Naxçıvan şəhərində ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə iftar süfrəsi açılmışdır.

İftar mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov milli-mənəvi dəyərlərimizə, tarixi ənənələrimizə və dini mərasimlərimizə xüsusi ehtiramla yanaşan ümummilli liderimiz Heydər Əliyevin ***"Xalqımızın dini-mənəvi dəyərləri, dinimizin adət-ənənələri bizim milli sərvətimizdir"*** fikrini xatırladaraq demişdir: Ən ali dini dəyərlərimizdən biri də mübarək Ramazan ayıdır. İlahi hikmətlər xəzinəsi olan "Qurani-Kərim"in nazil olduğu bu müqəddəs ay insanları əmin-amanlığa, bərabərliyə və savab işlərə dəvət edir. Dini dəyərlərə göstərilən ehtiramın nəticəsidir ki, muxtar respublikamızın paytaxtı Naxçıvan şəhəri 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilmişdir.

Ali Məclisin Sədri müqəddəs dəyərlərimizin daim uca tutulması diləyi ilə müqəddəs Ramazan ayında duaların və niyyətlərin qəbul olunmasını arzulamışdır.

Mərasimdə "Qurani-Kərim"dən ayələr oxunmuş, dualar edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ağciyər və Psixi Xəstəliklər dispanserlərində, Naxçıvan Muxtar Respublikası Onkoloji və Yoluxucu Xəstəliklər mərkəzlərində, eləcə də Hərbi hospitalda müalicə alan xəstələr üçün də iftar süfrələri açılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti 2018-ci ilin may ayında bir sıra qərarlar qəbul etmişdir. Nazirlər Kabinetinin 2018-ci il 4 may tarixli qərarları ilə "Naxçıvan Muxtar Respublikasının qaz təchizatında mühafizə zonaları və təhlükəsizlik tədbirləri Qaydaları"nda, "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"nda, "Naxçıvan Muxtar Respublikasında elmi ekspedisiyaların təşkili və aparılması Qaydaları"nda, "Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Qanunsuz Miqrantların Saxlanılması Mərkəzinin daxili intizam Qaydaları"nda və "Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə buğda və çəltik əkininə görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi Qaydaları"nın və "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti və digər hüquqi və fiziki şəxslər tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalçılarına mineral gübrələrin, biohumusun və pestisidlərin güzəştlə satılması Qaydaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 15 fevral tarixli 32 nömrəli qərarı haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 23 fevral tarixli 25 nömrəli qərarında dəyişikliklər edilmişdir. Sonuncu qərara görə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti və digər hüquqi və fiziki şəxslər tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalçılarına satılan mineral gübrələrin, pestisidlərin və biohumusun qiymətinə 70 faiz güzəşt tətbiq edilməklə, hər hektar genetik modifikasiya olunmamış bitkilərin əkin sahəsinə və çoxillik əkmələrə görə mineral gübrələrin və biohumusun satış qiymətinə tətbiq edilən güzəştin ümumi məbləğinin yuxarı həddi 150 manat, pestisidlərin satış qiymətinə tətbiq edilən güzəştin məbləğinin yuxarı həddi 50 manat məbləğində müəyyən edilmişdir.

Bununla yanaşı, Nazirlər Kabinetinin 2018-ci il 23 may tarixli qərarları ilə "Elektron xidmət növlərinin Siyahısı"nda, "Avtovağzal və avtostansiya haqqında Əsasnamə"də, "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"nda, "Həbs edilmiş şəxslərin hava gəmisində daşınması Qaydası"nda və "Naxçıvan Muxtar Respublikasının gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları"nda dəyişikliklər edilmişdir. Həmçinin Nazirlər Kabinetinin 2018-ci il 26 may tarixli qərarları ilə "Naxçıvan Yaşıllaşdırma Xidməti" publik hüquqi şəxsin Nizamnaməsi" və "Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi" publik hüquqi şəxsin Nizamnaməsi, göstərdiyi tibbi xidmətlərin siyahısı və tarifləri təsdiq edilmişdir.

Qeyd olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

***Bu gün ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da aparılan məqsədyönlü sosial siyasət nəticəsində insanların maddi rifah halı yüksəlib, hüquq və azadlıqlarının qorunması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib. İnsan hüquq və azadlıqlarının tərkib hissəsi olan uşaq hüquqları da, bu gün muxtar respublikamızda yüksək səviyyədə qorunur.***

## Muxtar respublikada uşaq hüquqları yüksək səviyyədə qorunur

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 24 may tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nın təsdiq edilməsi bu istiqamətdə aparılan işlərə həssaslıqla yanaşıldığının bariz ifadəsidir. Həmin qaydaya uyğun olaraq uşaq hüquqlarına dövlət nəzarəti sahəsində dövlət orqanlarının üzərinə müəyyən vəzifələr qoyulub. Onu da qeyd edək ki, dövlət nəzarətinin məqsədi uşaqların qanunvericiliklə müəyyən edilmiş hüquq və mənafelərinin qorunması, uşaq hüquqlarının təmin edilməsi üçün əlverişli mühitin yaradılması, bu hüquqların pozulmasına səbəb ola biləcək halların qarşısının alınmasıdır.

Dövlət nəzarəti qaydasına uyğun olaraq 2018-ci ilin əvvəlində Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın qərarı ilə dövri monitorinq keçiriləcək uşaq müəssisələrinin siyahısı və ekspert qrupunun tərkibi təsdiq olunub, 10-u məktəb, 7-si məktəbəqədər, 3-ü isə xüsusitipli uşaq müəssisəsi olmaqla, 20 uşaq müəssisəsində dövri monitorinq keçirilməsi nəzərdə tutulub. Ötən dövr ərzində 5-i məktəb, 2-si məktəbəqədər müəssisə, 1-i xüsusitipli uşaq müəssisəsi olmaqla, 8 uşaq müəssisəsində dövri monitorinq keçirilib.

Monitorinqlər zamanı müəssisələrdə uşaqların davamiyyəti, dərslərin vahid proqram əsasında dərs cədvəllərinə uyğun keçirilməsi, dərslərdən yayınan və təlim-tərbiyəyə ehtiyacı olan uşaqların aşkar olunması, sağlamlıq imkanları məhdud, valideyn himayəsindən məhrum və aztəminatlı ailələrin uşaqları ilə aparılan iş, xüsusi istedada malik uşaqların aşkarlanması məsələləri diqqətdə saxlanılıb. Bununla yanaşı, uşaqların fərdi gigiyena qaydalarına riayət etmələri, onların vaxtlı-vaxtında tibbi müayinələrdən keçirilmələri, elektron lövhə və kompüterlərin istismarı, kitabxana təmizliyi və kitablarla təminat, bufetçinin və pedaqoji heyətin dövri tibbi və laborator müayinələrə cəlb olunması, tibb bacısının və tibb otağının fəaliyyəti, müxtəlif təyinatlı laboratoriyaların, ərzaq məhsullarının sanitar və standartlaşdırma qaydalarına uyğun saxlanılması və bu kimi digər sahələr yoxlanılıb. Monitorinqlərdə müəllim, dayə, tərbiyəçi, eyni zamanda valideyn və ya onları əvəz edən digər qanuni nümayəndələrin uşaqlarla kobud rəftarı halları aşkarlanmayıb, uşaq hüquqlarının pozulması ilə əlaqədar heç bir müraciət və şikayət olmayıb.

Bununla belə, 4 ümumtəhsil, 1 məktəbəqədər təhsil müəssisəsində dərslərə davamiyyət, sanitar-gigiyenik vəziyyət, pedaqoji və yardımçı heyətin dövri tibbi və laborator müayinələrdən keçirilməsi, infrastrukturun saxlanılmasında nöqsan və çatışmazlıqlar üzə çıxarılıb. Həmin nöqsan və çatışmazlıqlar komissiyanın ekspert qrupunun üzvləri tərəfindən aktla rəsmiləşdirilib, surəti Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinə, müvafiq rayon (şəhər) icra hakimiyyətlərinə göndərilib və komissiya tərəfindən nəzarətə götürülüb. Aidiyyəti orqan tərəfindən komissiyaya göndərilmiş məlumata əsasən 2 məktəbdə nöqsan və çatışmazlıqlar aradan qaldırılıb, digər 2 məktəb və 1 məktəbəqədər müəssisədə bu istiqamətdə müvafiq işlər aparılmaqdadır.

Muxtar respublikanın müvafiq dövlət orqanları fəaliyyət istiqamətlərinə uyğun olaraq uşaqların qanunvericiliklə müəyyən edilmiş hüquq və mənafelərinin qorunması, uşaq hüquqlarının təmin edilməsi üçün əlverişli mühitin yaradılması, uşaq hüquqlarının pozulmasına səbəb ola biləcək halların aradan qaldırılması və qarşısının alınması istiqamətində işləri bundan sonra da davam etdirəcəklər.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Görülən işlərin təməlində insana qayğı dayanır

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin muxtar respublikamıza növbəti səfəri də, ənənəvi olaraq, müxtəlif obyektlərin açılış mərasimləri, dövlət başçısının Naxçıvanda görülən işləri yüksək qiymətləndirməsi, xalq-dövlət birliyinin bariz ifadəsi kimi yadda qalıb.*



Ölkə rəhbəri ilk açılışı muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunda edib. Dövlət başçısı "Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin birinci mərhələsinin açılışında deyib: ***"Şərur şəhərinin içməli su problemi öz həllini tapıbdır. Gözəl, əlamətdar hadisədir. Mənə verilən məlumata görə, bir neçə kənd də indi içməli su ilə təmin olunur. Bu, çox vacib sosial layihədir... Həmişə demişəm, bu gün də demək istəyirəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Onun problemlərinin, qayğılarının, bütün sosial məsələlərin həlli üçün bizdə çox güclü iradə, imkanlar var və görülən işlər bizim siyasətimizi əks etdirir.***

***Naxçıvan Muxtar Respublikasında sosial sahənin inkişafı üçün çox böyük işlər görülübdür, xəstəxanalar, məktəblər tikilibdir, içməli su və digər infrastruktur layihələri icra edilir. Əlbəttə ki, bu məsələlər insanların rahat yaşaması üçün əsas şərtdir. İçməli su insan sağlamlığı üçün əsas məsələdir və biz bu məsələni ölkə üzrə hər bir yerdə həll edirik".***

Tikintisi 2012-ci ildə başlanılan, 2017-ci ilin dekabr ayında tamamlanan layihə rayon sakinlərinə göstərilən böyük dövlət qayğısının ifadəsidir. Layihədə nəzərdə tutulan işlərin həcmi xeyli böyük olsa da, bütün işlər yüksək keyfiyyətlə yerinə yetirilib. Belə ki, Arpaçay subölücüsündə gölün dibindən 6 metr dərinlikdə, eni 13, hündürlüyü 2, uzunluğu 134 metr olan qalereya tikilib. Qalereyanın su sərfi saniyədə 1150 litr təşkil edir. Xətt üzərində 1 ədəd suboşaldıcı inşa olunub. Buradan gələn 3 su dezinfeksiya olunaraq su anbarlarına yığılır və öz axını ilə əhaliyə fasiləsiz ötürülür. Ümumi tutumu 27 min 500 kubmetr olan su anbarı tikilib. Qaleyreyadan Şərur şəhərinədək müxtəlifölçülü borularla 11 kilometr uzunluğunda ana xəttin tikintisi aparılıb.

Layihə ərazisində diametri müxtəlif ölçülərdə olan polietilen borularla 59,4 kilometr su xətti çəkilib, 2500 ev birləşməsi aparılaraq sayğac quraşdırılıb. Su şəbəkəsi üzərində 7 yanğın hidrantı inşa edilib. Yerin relyefindən asılı olaraq mənzillərə su 2-5 bar arasında təzyiqlə verilir.

Layihə çərçivəsində rayon mərkəzində diametri 200 millimetrdən 400 millimetrə qədər olan borularla 19,3 kilometr kanalizasiya şəbəkəsi çəkilib, 1500 ev kanalizasiya xəttinə qoşulub. Kanalizasiya sularının kənarlaşdırılması üçün 7,3 kilometr uzunluğunda ana xəttin tikintisi aparılıb. Şərur şəhərində kanalizasiya şəbəkəsi 9300 sakinin istifadəsinə verilib.

Şərur şəhəri, Mahmudkənd və Zeyvə yaşayış məntəqələrinin bir hissəsinin 13 min 500 nəfər sakini təmiz, ekoloji cəhətdən tam yararlı və Dünya Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli su ilə davamlı olaraq 24 saat təmin edilib.

Rayon əhalisinə göstərilən növbəti böyük dövlət qayğısının daha bir ifadəsi olan bu layihənin reallaşdırılmasına sakinlərin münasibətini öyrəndik. Təqaüdçü müəllim Vidadi Süleymanov bildirdi ki, muxtar respublikamız ölkə Prezidentinin qədim diyarımıza 15 ildə 14-cü səfərinin zəngin təəssüratını yaşayır. Naxçıvanlılar dövlət başçısının hər gəlişində diyarımızda möhtəşəm obyektlərin açılış mərasimlərində iştirakının bir ənənə şəklini aldığını yaxşı bilirlər. Elə may ayının 16-da da belə olacağını gözləyirdilər.

Şərurlular torpağa bağlı, zəhmətkeş insanlardır. Onlar son illərdə bu bölgəyə göstərilən qayğıdan xeyli razılıq edirlər. Elə həmin gün keçirilən açılış mərasimi də qayğının daha bir ifadəsi idi və rayon ictimaiyyətinin sevincini başa düşmək çətin deyildi. Su insan sağlamlığı üçün nə qədər əhəmiyyətlidirsə, təmizlik üçün də bir o qədər zəruridir. Bu imkanları bizə yaradan dövlət başçısına və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinə dərin minnətdarlığımızı bildiririk.

Onu da deyək ki, həmin gün Prezident İlham Əliyev Naxçıvan Şəhər Təmizləyici Qurğular Kompleksinin açılışında da iştirak edib. Bu qurğu vasitəsilə həm də əkin sahələrini suvarmaq imkanı yaradılıb.

Giriş nasos stansiyasından, hovuzlardan, inzibati, transformator, kompressor binalarından, suvarma üçün nəzərdə tutulan su hovuzundan ibarət olan kompleksdən Naxçıvan şəhəri, Qaraçuq, Qaraxanbəyli, Tumbul, Bulqan, Hacıniyyət, Babək rayonunun Şıxmahmud və Xəlilli kəndlərinin 121 min sakini istifadə etmək imkanı qazanıb. Layihə çərçivəsində 318,4 kilometr kanalizasiya xətti çəkilib, 24 min 700 ədəd kanalizasiya ev birləşməsi aparılıb. Yeni təmizləyici qurğu üçün tutumu 25 min 600 kubmetr olan 6 ədəd hovuz tikilib. Çirkab sular təmizləmə hovuzuna, buradan oksigensiz hovuza, oksigensiz hovuzdan isə havalandırma hovuzuna ötürülür, sonra membranlara vurulur. Mövsüm vaxtı təmizlənmiş su suvarma hovuzuna, qış fəslində isə Araz çayına axıdılacaq. Fiziki, bioloji, membran təmizləmə üsulları ilə aparılan təmizləmə prosesi müasir standartlara tam cavab verir və təmizlənmiş su nasos vasitəsilə Qaraçuq beton kanalına vurulur. Yeni nasos vasitəsilə 330, öz axını ilə 170, ümumilikdə, 500 hektar sahənin suvarılması mümkündür.

O da qeyd olunmalıdır ki, muxtar respublikada meliorativ tədbirlərin həyata keçirilməsi qədim diyarda aparılan quruculuq işlərinin tərkib hissəsinə çevrilib. Bunun nəticəsidir ki, 2017-ci ildə muxtar respublikada mövcud potensialdan səmərəli istifadə etməklə görülən tədbirlər nəticəsində 407 hektar sahədə su resurslarından qənaətlə istifadəyə imkan verən müasir suvarma sistemləri quraşdırılıb.

Hərtərəfli dövlət qayğısının davamlı xarakter almasının nəticəsidir ki, bu istiqamətdə həyata keçirilən işlərin bundan sonra da görülməsinin vacibliyini nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti elə həmin gün – may ayının 16-da "Naxçıvan Muxtar Respublikası ərazisində meliorativ tədbirlərin həyata keçirilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən muxtar respublikamıza 5 milyon manat pul ayrılıb.

Görülən bütün bu işlər isə ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda ulu öndər Heydər Əliyev siyasətinin uğurlu və yeni müstəvidə davam etdirilməsinin göstəricisidir. Muxtar respublikaya səfəri zamanı Naxçıvan ictimaiyyətinin nümayəndələri ilə görüşündə dövlət başçısının dediyi kimi: ***"Biz bu siyasətin gözəl nəticələrini ölkəmizin hər bir yerində görürük, o cümlədən Naxçıvan Muxtar Respublikasında. Bir daha demək istəyirəm ki, burada aparılan işlər çox yüksək qiymətə layiqdir, çox böyük zəhmət, çox böyük məhəbbət tələb edir. Görürəm ki, bütün işlər böyük məhəbbətlə, böyük zövqlə görülür ki, insanlar üçün yaxşı şərait yaradılsın, Naxçıvan Muxtar Respublikası bundan sonra da uğurla inkişaf etsin.***

***Mən də ulu öndərin siyasi xəttinə sadiq qalaraq bütün sahələrdə, o cümlədən Naxçıvana qayğı, diqqət məsələlərində o yolu davam etdirirəm".***

**✍ Muxtar MƏMMƏDOV**

***Muxtar respublikamızda sahibkarlıq fəaliyyəti ilə məşğul olanlara güzəştli kreditlərin ayrılması öz müsbət nəticələrini verməkdədir. Konkret məqsədlərə istiqamətlənmiş yeni layihələrin reallaşdırılması üçün hər bir sahibkar asanlıqla güzəştli kredit götürə bilər.***

# Sahibkarlığın inkişafı daha dinamik xarakter alır

Cari ilin ötən dövrü ərzində də görülən işlər sahibkarlığın davamlı inkişafına xidmət edib. Belə ki, sahibkarların fəaliyyətinin stimullaşdırılması məqsədilə Sahibkarlığa Kömək Fondu tərəfindən müxtəlif sahələri əhatə edən 18 layihənin maliyyələşdirilməsinə 5 milyon 609 min 700 manat vəsait yönəldilib.

Verilən kreditlər iqtisadiyyatın bir çox sahələrinin inkişafında mühüm rol oynayıb. Müxtəlif sənaye yönümlü 2 layihənin maliyyələşdirilməsinə 5 milyon 100 min manat, kənd təsərrüfatı məhsullarının istehsalı, o cümlədən meyvə-tərəvəz məhsullarının konservləşdirilməsi, arıçılıq, istixana təsərrüfatı və heyvandarlığın inkişafı yönümlü 16 layihənin maliyyələşdirilməsinə 509 min 700 manat vəsait sərf olunub.

Muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektlərinin əlaqələrinin inkişaf etdirilməsində, istehsal olunan məhsulların ixrac imkanlarının artırılmasında, onların xarici ölkələrdə tanıdılmasında keçirilən biznes-forum, sərgi və digər beynəlxalq tədbirlərin böyük əhəmiyyəti var. İstehsal olunan məhsulların tanıdılması və sahibkarların beynəlxalq təcrübəni mənimsəmələri məqsədilə bu ilin ötən dövrü ərzində ölkə daxilində və xaricdə keçirilən 2 biznes-forum, 5 beynəlxalq sərgi və 1 konqresdə 45 sahibkarlıq subyektinin 49 nümayəndəsinin iştirakı təmin edilib. 2018-ci ilin ötən dövrü ərzində Almaniyada və Birləşmiş Ərəb Əmirliklərində keçirilən sərgilərə 13 növdə, 58 çeşiddə məhsul çıxarılıb, İranda keçirilən sərgidə isə muxtar respublikada istehsal olunan 249 adda ərzaq və qeyri-ərzaq məhsulları, o cümlədən 62 adda əl işinin sərgi və satışı həyata keçirilib.

Naxçıvanda sahibkarlıq fəaliyyətinə kənar müdaxilələrin qarşısının alınması, onların hüquqlarının müdafiəsi diqqətdə saxlanılır. Bu istiqamətdə muxtar respublikada 4289 sahibkarlıq subyekti nəzarət kitabçası ilə təmin edilib, "Qaynar xətt" vasitəsilə 1612 sahibkarlıq subyekti ilə maarifləndirmə işi aparılıb, sahibkarların problemləri ilə bağlı sorğuları qanunvericiliyə uyğun həll edilib.

Sahibkarların fəaliyyətinin müdafiə olunması, milli sahibkarlığın inkişaf etdirilməsi, yerli istehsalçıların mənafelərinin xarici təsirlərdən qorunması və digər bu kimi funksiyaların yerinə yetirilməsi məqsədilə həyata keçirilən tədbirlərdən biri də bəzi fəaliyyət növlərinin lisenziyalaşdırılmasıdır. Ötən dövrdə lisenziya və icazə sisteminin tənzimlənməsinin hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edən "Lisenziyalar və icazələr haqqında" Qanun qəbul olunub. Qanuna əsasən muxtar respublikada sahibkarlıq fəaliyyəti üçün müddətsiz lisenziyaların verilməsinə başlanılıb, bu prosesdə "bir pəncərə" prinsipi tətbiq edilib.

Qeyd edilənlər bundan sonra da ümumi iqtisadi inkişafda sahibkarların xüsusi çəkisinin artacağını göstərir. Çünki artıq ölkəmizdə, eləcə də muxtar respublikamızda sahibkarlıq üçün möhkəm baza yaradılıb və bu proses indi də davam etməkdədir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

# Arıçılıq təsərrüfatında maarifləndirici tədbir

"2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin icrasını təmin etmək üçün Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində tədbirlər planı təsdiq olunub.

Həmin tədbirlər planına uyğun olaraq bu istiqamətdə müxtəlif tədbirlər həyata keçirilir, arıçılıqla məşğul olanlara metodik köməklik göstərilir. Görülən bu işlərin davamı olaraq nazirliyin Heyvandarlıq, damazlıq işi və otlaqlar şöbəsinin əməkdaşları Əyyub Abdullayev və Vəli Novruzovun iştirakı ilə Culfa rayonunun Camaldın kəndində arıçı sahibkar Kamil Məmmədovun arıçılıq təsərrüfatında maarifləndirici tədbir keçirilib. Tədbir çərçivəsində sahibkarın arı ailələrinə baxılıb, güclü arı ailələrinin bölünməsi, beçəvermənin tənzimlənməsi, köç yerlərinin dəyişdirilməsi, arıxanalarda baytar-sanitar qaydalarına uyğun işlərin aparılması, arıçılığa ziyan vuran parazitar xəstəliklərin müalicə və profilaktikası haqqında geniş məlumat verilib.

Sonda nazirliyin əməkdaşlarının hazırladıqları "Arıxanalara baytarlıq-sanitariya pasportunun (şəhadətnaməsinin) verilmə qaydaları", "Bal arılarının parazitar xəstəlikləri və onlara qarşı səmərəli mübarizə tədbirləri", "Həvəskar və peşəkar arıçılıqla məşğul olma, arı ailəsinin standart göstəricilərinin müəyyən edilməsi, arıçılıq təsərrüfatlarının uçota alınması və statistik hesabatlarının təqdim edilməsi qaydaları" adlı bukletlər təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

# İstixana kompleksində bol məhsul yetişdirilir

*Muxtar respublika iqtisadiyyatının prioritet sahələrindən biri olan kənd təsərrüfatının inkişafına dövlət tərəfindən göstərilən diqqət və qayğı ildən-ilə artır, bu sahədə stimullaşdırıcı tədbirlər həyata keçirilir. Babək rayonunun qəsəbə və kəndlərində də sahibkarlığın inkişaf etdirilməsi üçün münbit şərait yaradılıb.*





"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" əhalinin bu məhsullara olan tələbatının yerli istehsal hesabına ödənilməsini təmin edib. Hər il Naxçıvanda sahibkarlarla görüşlərin keçirilməsi, təsərrüfatların genişləndirilməsi üçün maddi vəsaitin ayrılması onlara stimul verib. İndi yaradılan şəraitdən istifadə etməyi bacaran hər kəs yaxşı sahibkar adını qazana bilər. Elə yuxarı uzunobalı Murad Cabbarov kimi.

Fiziki şəxs Murad Cabbarov tərəfindən 3500 kvadratmetr ərazidə istixana təsərrüfatının qurulması daxili bazarın yerli məhsullarla təminatına imkan verir. Kompleks ilin hər fəslində Naxçıvanın bazar-dükanlarına keyfiyyətli tərəvəz məhsulları satışa çıxarır.

İki il bundan öncə kənddə 7 istixana kompleksi yaradan sahibkar deyir ki, əvvəlcə qardaş Türkiyə Respublikasında eyniprofilli təsərrüfatda təcrübə keçdim. Daha sonra şəxsi vəsaitim hesabına tərəvəz məhsulları istehsal edən bu cür kompleks qura bildim, dövlət maliyyə dəstəyi hesabına imkanlarımı genişləndirdim.

Öyrəndik ki, artıq bu gün istixanada avtomatik istilik sistemi fəaliyyət göstərir. Suvarma üçün artezian quyusu qazılıb. Burada yetişdirilən xiyar "Tazəm-F1", pomidor isə "Ayza-F1" salxım sortudur. Becərmə isə müasir texnologiya əsasında aparılır. Bunun nəticəsidir ki, 2-3 gündən bir məhsul yığımı həyata keçirilir.

Murad Cabbarov onu da bildirdi ki, Naxçıvan şəhərində və rayonlarda tərəvəz satışı ilə məşğul olan satıcılar məhsullarını yerindəcə alırlar. İlin bütün fəsillərində alıcıları keyfiyyətli tərəvəz məhsulları ilə təmin etməyə çalışırlar. Yaxşı məhsul isə bazarda adı ilə tanınır. Artıq bu sahədə müəyyən uğurlar qazana bilibləр.

Kompleksdə 7 nəfəri daimi işlə təmin edən sahibkar gələcəkdə bu sahəni genişləndirmək fikrindədir. Murad Cabbarov daxili bazara daha çox yerli məhsul çıxarmaqla ucuzluq və bolluq yaradılmasına töhfə vermək istəyir.

**Muxtar RZAZADƏ**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya dövlət orqanlarında vakant mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçi vəzifələrinin tutulması üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən namizədlər 1 iyun 2018-ci il tarixdən 21 iyun 2018-ci il tarixədək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın internet saytında (*www.dqmk.nmr.az*) elektron xidmətlər bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Müsabiqədə ali təhsil müəssisələrini ***jurnalistika, Azərbaycan dili və ədəbiyyat müəllimliyi, tarix müəllimliyi və hüquqşünaslıq*** ixtisasları üzrə bitirmiş şəxslər iştirak edə bilərlər.

Elektron ərizələrin təsdiqi həftənin iş günləri saat $09^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək həyata keçirilir.

Maraqlananlar Komissiyanın (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya *dqmk@nakhchivan.az* elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.

| Vəzifə kodu | Dövlət orqanı və struktur bölmə | Vəzifə |
|---|---|---|
| **1. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı** | | |
| 120223 | Hüquqi maarifləndirmə, elmi analitik, informasiya və ictimaiyyətlə əlaqələr şöbəsi. İnformasiya və ictimaiyyətlə əlaqələr üzrə | baş məsləhətçi |
| **2. Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi** | | |
| 910023 | Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | baş inspektor |
| **3. Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi** | | |
| 320023 | Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | baş zabit |
| **4. Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi** | | |
| 340023 | Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | baş mütəxəssis |
| **5. Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi** | | |
| 210023 | Aparat. Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | baş məsləhətçi |
| **6. Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi** | | |
| 270023 | Aparat. Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | baş məsləhətçi |
| **7. Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti** | | |
| 330023 | Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | baş məsləhətçi |
| **8. “Naxçıvanqaz” İstehsalat Birliyi** | | |
| 350023 | Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | baş məsləhətçi |
| **Cəmi: 8** | | |

## Elmi-tədqiqat işlərinin yekununa həsr edilmiş elmi konfrans

Naxçıvan Dövlət Universitetində 2017-2018-ci tədris ilində Tələbə Elmi Cəmiyyətinin (TEC) xətti ilə yerinə yetirilmiş elmi-tədqiqat işlərinin yekununa həsr olunmuş ümumuniversitet elmi konfransı keçirilib.



Plenar iclası universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq TEC-i gələcəyin magistrlərinin, elmi tədqiqatçıların yetişməsində mühüm rol oynayan bir təşkilat kimi səciyyələndirib.

Elmi işlər üzrə prorektor, dosent Mübariz Nuriyev TEC-in əhəmiyyətindən, universitetdə fəaliyyət göstərən təşkilatın tələbələrin elmi fəallığının və elmi dünyagörüşünün artırılmasındakı rolundan, cəmiyyətin fakültələr üzrə sədrlərinin tələbələrlə apardığı işlərdən danışıb.

“TEC-in qarşısında duran vəzifələr haqqında” məruzə edən universitet TEC-in sədri, Riyaziyyat və informatika müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Bətulə Əlizadə bildirib ki, təşkilatın başlıca vəzifəsi tələbələrdə elmə olan marağı artırmaqdır. Vurğulanıb ki, hər tədris ilində olduğu kimi, cari tədris ilində də təşkilatın iş planı tərtib olunub, tələbələrlə əlaqələrin gücləndirilməsinə xüsusi diqqət yetirilib.

Elmi rəhbəri hüquq üzrə fəlsəfə doktoru, dosent Seymur Talıbov olan Beynəlxalq münasibətlər ixtisası üzrə II kurs tələbəsi Elsun Cahangirlinin “Ümummilli lider Heydər Əliyevin enerji diplomatiyası müstəqil Azərbaycan Respublikasının davamlı inkişafının təminatıdır” mövzusunda hazırladığı elmi-tədqiqat işi ilə bağlı çıxışı dinlənilib.

Konfrans 47 bölmə üzrə işini davam etdirib. Burada tələbələr müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə, təqdim olunan elmi məqalələrin bütün detalları – cədvəllər, şəkillər, diaqramlar əyani şəkildə, təfsilatı ilə konfrans iştirakçılarına təqdim olunub. Tələbələrin məruzələri dinlənilib, müzakirələr aparılıb.

**Səadət ƏLİYEVA**

## Muxtar respublikada miqrasiya proseslərinin idarə olunması diqqət mərkəzindədir



***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 31 may tarixli Fərmanına əsasən Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidməti yaradılmışdır.***

Bu gün muxtar respublikada bütün sahələrlə yanaşı, miqrasiya sistemində idarəçiliyin təkmilləşdirilməsi də diqqət mərkəzindədir. Xidmətin maddi-texniki bazası gücləndirilmiş, müasir standartlara cavab verən inzibati binası tikilərək istifadəyə verilmişdir. Görülən işlərin nəticəsidir ki, muxtar respublikada miqrasiya prosesləri qanunun tələblərinə uyğun həyata keçirilir. Xidmət ötən dövrdə fəaliyyətini muxtar respublika ərazisində miqrasiya proseslərinin tənzimlənməsi, onların uçotunun aparılması, miqrasiya siyasətinin həyata keçirilməsi istiqamətində qurmuş, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi təminatçısına çevrilmişdir. Azərbaycan Respublikasının ərazisində müvəqqəti və daimi yaşamaq, həmçinin muxtar respublika ərazisində haqqıödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazələrinin verilməsi, vətəndaşlıq mənsubiyyətinin və qaçqınlıq statusunun müəyyənləşdirilməsi, eyni zamanda müvəqqəti olma müddətinin uzadılması ilə bağlı Dövlət Miqrasiya Xidmətinə daxil olmuş müraciətlərin hər biri ayrı-ayrılıqda qanunvericiliyin tələblərinə uyğun araşdırılaraq müvafiq qərarlar qəbul edilmişdir.

Naxçıvan Muxtar Respublikasındakı sabitlik, yeni iş yerlərinin açılması, sahibkarlığın inkişafı, infrastrukturun yeniləşdirilməsi, miqrasiya proseslərinin dünya standartları səviyyəsində tənzimlənməsi miqrant axınının artmasına səbəb olub. Bu da miqrasiya sahəsində tədbirlərin diqqətdə saxlanılmasını zəruri edir.

Muxtar respublikada əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin uçotunun aparılması, miqrasiya proseslərinin idarə olunmasında iştirak edən dövlət orqanlarının zəruri informasiya ilə təmin edilməsi Dövlət Miqrasiya Xidmətində Vahid Miqrasiya Məlumat Sistemi vasitəsilə həyata keçirilir. Son illər muxtar respublika iqtisadiyyatında müşahidə olunan sabit artım tempi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, yeni iş yerlərinin açılması və səmərəli məşğulluğun təşkili əməkçi miqrantlar üçün yeni imkan və əlverişli şərait yaradır. Daxili əmək bazarının qorunması kimi mühüm missiyanı yerinə yetirən Dövlət Miqrasiya Xidməti əcnəbi işçi qüvvəsindən istifadənin qanuna müvafiq olaraq tənzimlənməsi istiqamətində ardıcıl tədbirlər görür.

Naxçıvan Muxtar Respublikası mühüm nəqliyyat dəhlizlərinin kəsişdiyi mövqedə yerləşdiyindən burada çoxsaylı tranzit miqrantların hərəkəti müşahidə edilir. Dövlət Miqrasiya Xidmətinin qarşısında duran vəzifələrdən biri də bu qəbildən olan miqrantların ölkə ərazisində məskunlaşmalarının və qanunsuz olaraq muxtar respublika ərazisindən tranzit keçidi kimi istifadə edərək üçüncü ölkəyə keçmələrinin qarşısının alınmasıdır. Muxtar respublikanın xaricə giriş-çıxış qapıları sayılan Sədərək, Culfa, Şahtaxtı və Naxçıvan Beynəlxalq Hava Limanındakı sərhəd-buraxılış məntəqələrində qanunsuz miqrasiyanın qarşısının alınmasına nəzarətin daha effektiv şəkildə həyata keçirilməsinə başlanmışdır. Bundan əlavə, sərhəd-buraxılış məntəqələrinin miqrasiya bölmələrində elektron məlumat köşklərinin yerləşdirilməsi miqrasiya sahəsi üzrə xidmət növləri ilə bağlı məlumatların 3 dildə – Azərbaycan, rus və ingilis dillərində yazılı və səsli formada vətəndaşlara çatdırılmasına imkan verir.

Məlumat ixracatçısı hesab olunan hər bir xarici ölkə vətəndaşına hərtərəfli köməklik göstərmək Dövlət Miqrasiya Xidmətinin hər bir əməkdaşının vəzifə borcudur. Çünki Naxçıvana gələn hər bir turist, eyni zamanda ölkəmiz haqqında informasiya ixrac edən xoşməramlı elçidir. İran İslam Respublikası və Türkiyə Respublikası ilə sərhəd-keçid rejiminin sadələşdirilməsi, Naxçıvan Beynəlxalq Hava Limanından xarici reyslərin təşkili, habelə Naxçıvan-Təbriz-Tehran-Məşhəd beynəlxalq sərnişin qatarının fəaliyyətə başlaması turizm və humanitar sahədə əməkdaşlığı genişləndirmiş, Naxçıvan Muxtar Respublikasına turizm məqsədilə gələn miqrantların sayını artırmışdır. Bu səbəbdən də sərhəd-buraxılış məntəqələrinin miqrasiya bölmələrində, Naxçıvan və Culfa dəmir yolu vağzalı binalarında miqrasiya xidmətlərinin həyata keçirilməsi üçün zəruri şərait yaradılmışdır. Yerlər üzrə Vahid Miqrasiya Məlumat Sisteminin fəaliyyəti təmin edilməklə, ölkəyə daxil olan əcnəbilərin qeydiyyata alınması sadələşdirilmişdir.

Muxtar respublika ərazisində fəaliyyət göstərən və turizm sahəsində əsas subyekt rolunu oynayan mehmanxanaların da Dövlət Miqrasiya Xidmətinin elektron resurslarından maksimum şəkildə yararlanmasına şərait yaradılmış, mehmanxanalarla Dövlət Miqrasiya Xidməti arasında ölkəyə gələn əcnəbilərin olduğu yer üzrə qeydiyyata alınması internet üzərindən həyata keçirilməyə başlanmışdır.

Xidmətin rəsmi internet səhifəsi *www.miqrasiya.nakhchivan.az* saytı daim yenilənmişdir. Üç dildə vətəndaşların istifadəsinə verilən rəsmi internet səhifəsinin fəaliyyət göstərməsi dünyanın müxtəlif yerlərindən əcnəbi və vətəndaşlığı olmayan şəxslərə müraciətetmə imkanı yaratmış və miqrasiya sahəsi üzrə göstərilən xidmətlərin keyfiyyətinin artırılmasında böyük rol oynamışdır.

Eyni zamanda saytda muxtar respublikanın turizm məkanlarını və tarixi abidələrini özündə əks etdirən videoçarxın və şəkillərin nümayiş etdirilməsi, Naxçıvan Muxtar Respublikasının portalına keçidin verilməsi əcnəbilərdə həm muxtar respublika barədə ilkin təsəvvürün yaranmasına, həm də ölkəyə gəldiyi vaxtdan miqrasiya qanunvericiliyi ilə tanış olmaqla, müraciətlərinin göndərilməsinə imkan yaratmışdır. Dövlət Miqrasiya Xidmətinin “202 – Miqrasiya Məlumat Mərkəzi”nin fəaliyyəti də miqrasiya sahəsi üzrə müraciətlərin cavablandırılmasında və vətəndaşların lazımi informasiyaları əldə edərək maarifləndirilməsində böyük rola malikdir.

Muxtar respublikada əcnəbilərin azad və təhlükəsiz yaşamaq hüququ ilə bağlı bir problem kimi sığınacaq hüququ və onunla əlaqədar məsələlərin həllinə daim diqqətlə yanaşılır. Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Qanunsuz Miqrantların Saxlanılması Mərkəzinin istifadəyə verilməsi bu sahədəki çətinlikləri tamamilə aradan qaldırmış, könüllü və məcburi saxlanılan miqrantların hüquqlarının təmin edilməsi məqsədilə qanunvericilikdə nəzərdə tutulmuş qaydalara uyğun olaraq hər cür şərait yaradılmışdır. Bu da muxtar respublikada insan amilinə verilən dəyərin daha bir ifadəsidir.

Bu gün Naxçıvan Muxtar Respublikası miqrantlar üçün yaşamaq və işləməyin əlverişli olduğu bir məkana çevrilib. Bu baxımdan Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidməti muxtar respublikaya gələn və burada işləyən əcnəbilərin maarifləndirilməsi istiqamətində də bir sıra tədbirlər həyata keçirir, onların tarixi abidələrimizə və muzeylərə ekskursiyaları təşkil olunur.

Dövlət Miqrasiya Xidməti tərəfindən muxtar respublikada miqrasiya proseslərinin idarə edilməsində beynəlxalq təcrübənin öyrənilməsi və bu sahədə kadr potensialının formalaşdırılması da daim diqqət mərkəzində saxlanılır, vəzifələrini nümunəvi yerinə yetirən, qulluqda yüksək nəticələr əldə edən əməkdaşların fəaliyyəti qiymətləndirilir.

***Dövlət Miqrasiya Xidmətinin kollektivi bundan sonra da yaradılan şəraitdən istifadə edərək işini günün tələbləri səviyyəsində quracaq, qarşıya qoyulan vəzifələrin icrasında səylə çalışacaqdır.***

**Şahanə SEYİDOVA**
***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin ictimaiyyətlə əlaqələr üzrə baş inspektoru***

## Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə tədbirlər keçirilib

*Culfa Rayon İcra Hakimiyyəti və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə tədbir keçirilib.*

Tədbirdə Culfa Rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev çıxış edərək bildirib ki, uşaqlara qayğı göstərmək, onların həm fiziki, həm də mənəvi cəhətdən sağlam böyüməlrini, milli və mənəvi dəyərlərimizə sadiq bir şəxsiyyət kimi formalaşmalarını təmin etmək muxtar respublikada qarşıya qoyulan əsas məqsədlərdəndir. Muxtar respublikanın bütün rayonlarında, o cümlədən Culfa rayonunda uşaqlar yüksək qayğı ilə əhatə olunur, yeni tikilmiş və ya əsaslı təmir olunmuş məktəblərdə təhsil alır, asudə vaxtlarını məktəbdənkənar təhsil müəssisələrində səmərəli keçirirlər.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aytən Məmmədova çıxışında bildirib ki, muxtar respublikada uşaqların sağlamlığının qorunmasına, təhsilinə, istedadlarının üzə çıxarılmasına həssaslıqla yanaşılır, ən mütərəqqi üsullar tətbiq edilir, dövlət proqramları qəbul edilərək icra olunur. Həyata keçirilən bu tədbirlər uşaqların fiziki, əqli, mənəvi, əxlaqi və sosial inkişafı üçün lazımi həyat səviyyəsinin təmin olunması sahəsində görülən işlərin tərkib hissəsini təşkil edir.

Sonra 2017-2018-ci tədris ilində Culfa rayonu üzrə təhsil, incəsənət, idman sahələrində fərqlənən şagirdlərə fəxri fərmanlar və hədiyyələr təqdim olunub. Tədbir konsert proqramı ilə başa çatıb.

Qeyd edək ki, həmin gün 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə Naxçıvan Muxtar Respublika Xəstəxanasında hemofiliyalı və talassemiyalı uşaqlar üçün qanvermə aksiyası da keçirilib. Bir neçə saat davam edən aksiyada 18 nəfər könüllü olaraq qan verib. Onlardan götürülən 9 litr qan Mərkəzi qan bankına təhvil verilib.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Uşaqlarımıza qayğı işıqlı gələcəyimizin zəmanətidir

### *Qıvraq qəsəbəsindəki uşaq bağçasında bu amil diqqət mərkəzində saxlanılır*




***Uşaqlar ailənin sevinci, millətin gələcəyi, ölkənin nurlu sabahıdır. Odur ki, onların hərtərəfli inkişafı, vətənpərvər ruhda böyüməsi, gələcəkdə cəmiyyətə layiqli vətəndaş olaraq yetişməsi çox önəmlidir. Sevindirici haldır ki, bu gün muxtar respublikamızda uşaqlara böyük sevgi və qayğı ilə yanaşılır, onların təlim-tərbiyəsinin, təhsilinin, sağlamlığının, sosial müdafiəsinin yüksək səviyyədə təşkilinə hərtərəfli şərait yaradılır, hüquqlarının qorunması, asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır. Son illər muxtar respublikamızda gələcəyimizi etibar edəcəyimiz uşaqların təlim-tərbiyəsi ilə məşğul olan müəssisələrin yaradılması, onların hər cür şəraitlə təmin olunması dövlətimiz tərəfindən həyata keçirilən prioritet vəzifələrdəndir. Bu qayğının davamı kimi ötən il Kəngərli rayonunun Qıvraq qəsəbəsində istifadəyə verilən uşaq bağçasını göstərmək olar. Yaxın günlərdə adıçəkilən ünvana getməkdə məqsədimiz lazımi şəraitin yaradıldığı bu tərbiyə müəssisəsinin fəaliyyəti ilə yaxından tanış olmaq idi.***

Burada olarkən bağçanın müdiri Flora Məmmədli bildirdi ki, son illər muxtar respublikamızda uşaqların əlverişli sosial mühitdə böyüməsinə xüsusi diqqət göstərilir. Onların fiziki və əqli inkişafı, istedad və bacarıqlarının üzə çıxarılması, asudə vaxtlarının düzgün təşkili sahəsində ardıcıl tədbirlər görülür. Ötən il aprel ayının 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə Kəngərli rayon Qıvraq qəsəbəsindəki uşaq bağçasının istifadəyə verilməsi də belə tədbirlərin davamıdır.

Flora Məmmədli ilə söhbət zamanı öyrəndik ki, zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan bağçada körpələr, orta, böyüklər və məktəbəhazırlıq qrupları olmaqla, ümumilikdə, 9 qrup fəaliyyət göstərir. Hazırda burada 167 uşağın tərbiyəsi ilə 9 tərbiyəçi və 9 dayə məşğul olur. Ən müasir infrastrukturla təchiz edilən bağçada uşaqların təlim-tərbiyəsi və gələcəyin sağlam vətəndaşları kimi yetişmələri üçün hər cür şərait yaradılıb. Hər qrup üçün yataq otağı, yemək və oyun zalları, tədbirlər zalı, valideynlər otağı, tibb otağı, mətbəx, ərzaq anbarı, camaşırxana və digər otaqlar istifadəyə verilib. Həyətyanı sahədə uşaqların əyləncəsi üçün uşaq-əyləncə vasitələri quraşdırılıb, istirahət guşəsi yaradılıb. Flora xanım uşaq bağçasının kollektivi adından uşaqlar üçün belə gözəl şəraitin yaradıldığına görə dövlətimizə minnətdarlığını bildirdi.



Müsahibimizlə birlikdə otaqlara baş çəkirik. Şahidi oluruq ki, həqiqətən də, bağçada uşaqların hərtərəfli inkişafı üçün hər cür şərait yaradılıb. Uşaqlar onlara qucaq açan ikinci evlərində qayğı və nəvazişlə, gigiyenik təmizlik və tibbi nəzarətlə və ən əsası peşəkar mütəxəssis və mehriban kollektivlə əhatə olunublar. Tərbiyəçilər burada uşaqlara doğma yurdumuz, Vətənimiz, adət-ənənələrimiz barədə məlumatlar verir, onlarda ilkin təsəvvürlər yaradırlar. Bağçanın müəllimləri gələcəyimiz olan uşaqların tərbiyəsində əllərindən gələni əsirgəmirlər. Burada uşaqlara mahnı oxumaq, rəqs etmək, şəkil çəkmək və müxtəlif fiziki hərəkətləri yerinə yetirmək kimi bacarıq və vərdişlər də aşılanır. Balaca fidanların maraq dairəsinə uyğun olaraq keçirilən müxtəlif məşğələ və tədbirlər onlarda fiziki inkişafın və bədii-estetik, mənəvi zövqün formalaşdırılması məqsədi daşıyır. Uşaqların maariflənməsində, düzgün tərbiyə olunmasında səylə çalışan kollektiv onların dünyagörüşlərinin zənginləşməsinə böyük təsir göstərir.

Otaqlara baş çəkərkən tərbiyəçi-müəllim Sevil Həsənova ilə həmsöhbət oluruq. O deyir ki, sabahımızın nurlu olması üçün uşaqları elə formalaşdırmalıyıq ki, onlar mənəvi dəyərlərimizə, tariximizə, mədəniyyətimizə bağlı layiqli vətəndaş kimi böyüsünlər. Ona görə də biz tərbiyəçilər bağçada mütəmadi olaraq ədəbi-bədii tədbirlər keçiririk. Xüsusi kompozisiyalar, səhnəciklər vasitəsilə onlarda Vətənə, millətə sevgi aşılayırıq. Sevil Həsənova vurğulayır ki, məktəbəhazırlıq yaşı uşaqların şəxsiyyət kimi yetişdiyi dövrdür. Bu dövrdə uşaqlarda ətraf aləm haqqında ilkin təsəvvürlər yaranır. Buna görə də onların nitqini, diqqətini, yaddaşını, məntiqi təfəkkürünü, yaradıcı təxəyyülünü inkişaf etdirmək üçün bağçanın müəllimləri bu dövrü xüsusilə diqqət mərkəzində saxlayır və səylə çalışırlar. Gördüklərimiz bunu deməyə əsas verir ki, bağçada dayələr, tərbiyəçi müəllimlər öz işlərinin öhdəsindən layiqincə gəlir, buradakı uşaqların hərtərəfli inkişafı üçün daim onların qayğısını çəkir, sağlamlıqlarına və qidalanmalarına xüsusi diqqət yetirirlər.

İşıqlı gələcəyimizin təmin edilməsində, heç şübhəsiz, sabahımız olan uşaqların düzgün tərbiyəsi başlıca amil rolunu oynayır. Çünki uşaqlar bizim gələcəyimizdir. Bu gün uşaqlarımızı nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə, millətimizin, dövlətimizin gələcəyi də bundan asılı olacaqdır. ***“Mən həyatımın, bu günümün və gələcəyimin xoşbəxtliyini, səadətini məhz uşaqlara diqqətdə, qayğıda görürəm”***, – deyən ulu öndərin müəyyən etdiyi vəzifələrin muxtar respublikamızda bu gün uğurla həyata keçirildiyini görmək qəlbimizdə sonsuz qürur hissi yaradır.

**Gülcamal TAHİROVA**

*Dini, mənəvi dəyərlər içərisində ən geniş yayılan və diqqəti cəlb edən dini ayinlərdən biri də oruc tutmaqdır. Ramazan orucu hicrətin ikinci ili, şaban ayının 10-da vacib buyurulmuşdur. Belə ki, 624-cü ildən etibarən oruc tutulmağa başlanılmışdır. O vaxta qədər isə müsəlmanlar bəzi dinlərin nümayəndələri kimi hər ay üç gün oruc tuturdular. Peyğəmbərimiz Həzrəti Məhəmməd (s.ə.v) həyatında 9 Ramazan orucu tutmuşdur.*

## “Orucun 15-i” mərasimi haqqında

Orucluq İslamın təməl şərtlərindən olub hər bir müsəlmana fərz qılınmışdır. Allah-Taala buyurub: *“Oruc mənə görədir, mən özüm onun mükafatını verəcəyəm”*. Məhəmməd Peyğəmbər (s) buyurub: *“Oruc insanı cəhənnəm odundan qoruyan qalxandır”, “Orucluq dözüm ayıdır, dözümün, səbrin mükafatı isə cənnətdir”, “Oruc tutun, sağlam olun”*.

Orucun İslam aləmində qəti qərarlaşmış bir məzmunu vardır. Oruc tutmaq müəyyən olunmuş vaxt kəsiyində özünü dünya nemətlərindən uzaqlaşdırmaqla bərabər, ilk növbədə, Allaha ibadət etməkdir. Çünki orucluq zamanı görülən işlər Allah yolunda görülən savablardandır. İslam dünyasında o ən pak, saf və təmiz ay hesab olunur.

Xalqımızın qədim və zəngin milli-mənəvi dəyərləri sırasında İslam dini ilə əlaqədar müxtəlif adətlərin də özünəməxsus yeri vardır. Ordubad bölgəsinin bəzi kəndlərində və əsasən, Ordubad şəhərinin özündə qeyd edilən belə mərasimlərdən biri də “Orucun 15-i” mərasimidir. Orucluq 15 gün keçəndə yarı olur. Mərasimin keçirilməsi də bununla əlaqələndirilir. Yəni artıq bu ayı yarı etdik. Mərasim zamanı uşaqlar bir yerə yığışıb qapı-qapı gəzib pay yığardılar. Pay yığılan zaman bu sözlər uşaqlar tərəfindən oxunardı:

*Orucun 15-dir gəldik sizə,*
*Orucun niyazını verin bizə,*
*Xanım, ayağa dursana,*
*Boşqabı doldursana,*

*Oğlun qızın var olsun,*
*Doğduğun oğlan olsun,*
*Son beşiyin qız olsun,*
*Açılsın sünbül olsun.*

Sonra uşaqların biri “Rəbbi Cəlil boşqabı doldurub gəlir”, – söyləyə, qalan uşaqların hamısı xor ilə “konfet gəlir, ərik qurusu gəlir, alana gəlir”, – deyərdilər. Bir sözlə, ürəkləri nə istəyərdisə, onun adını çəkərdilər. Kimsə pay verməsə, onlara tərəf üz tutub birgə deyərdilər:

*Pay verənin oğlu olsun,*
*Vermiyənin qızı olsun.*

Tanınmamaq üçün uşaqlar üzlərini gizlədər və ya bəzəyərdilər. Sonda uşaqlardan biri yığılmış payı hər kəs arasında bərabər şəkildə bölərdi.

Onu da qeyd edək ki, bu mərasimə bir neçə gün qalmış hər evdə hazırlıq görərdilər. Həmin gün axşam iftarını zəngin süfrə ilə açar, sonra nişanlı qız evinin valideynləri bəyi görmək üçün oğlan evinə gələrdilər. Ailənin üzvlərinə, xüsusilə bəyə müəyyən hədiyyələr gətirərdilər. Bundan əlavə, orucun 15-nə qədər heç kimi iftar süfrəsinə dəvət etməzdilər. Bir daha vurğulayaq ki, bu mərasim ancaq Ordubad şəhərinə və ətrafdakı bir neçə kəndə aiddir.

Kəngərli rayonunun Xok kəndindən toplanmış materiallara görə isə bu kənddə orucun çıxmasına 3 gün qalmış məhəlli xarakterli bir mərasim keçirərdilər. Günortaya kimi evlərdə buğda qovurar, qız-gəlinlər təzə paltarlar geyinər, oğlan uşaqları xoruz döyüşdürər, əyləncəli işlərlə məşğul olardılar. Mərasim günortadan sonra başa çatardı. Bu şənlik İbn Mülcəmin (Həzrəti Əlini öldürən şəxs) ölümü ilə əlaqədar keçirilərdi.

Qeyd edək ki, Ramazan bayramı Azərbaycan Respublikasında 1993-cü ildən dövlət səviyyəsində qeyd olunur. Bu, digər adət-ənənələrimiz kimi dini dəyərlərimizin qorunub yaşadılmasına dövlət qayğısının bariz ifadəsidir.

**Asəf ORUCOV**
***tarix üzrə fəlsəfə doktoru, dosent***

## *“Gənc Tusilər”* adlı təlim-seminar təşkil edilib

Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun təşkilatçılığı ilə muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan, astronomiya elminə maraq göstərən tələbələr Batabat Astrofizika Rəsədxanasında “Gənc Tusilər” adlı təlim-seminarda iştirak ediblər. Tədbir çərçivəsində tələbələr rəsədxana ilə yaxından tanış olub, burada yaradılan iş şəraiti ilə maraqlanıblar.

Təşkil edilən seminarı fondun əməkdaşı Ceyhun Xəlilli açaraq tədbirin əhəmiyyətindən bəhs edib. AMEA Naxçıvan Bölməsi Batabat Astrofizika Rəsədxanasının direktoru Qulu Həziyev çıxış edərək rəsədxana və burada aparılan elmi müşahidələr haqqında tələbələrə ətraflı məlumat verib.

Seminarda tələbələri maraqlandıran suallar cavablandırılıb.

**Nail ƏSGƏROV**

## Kikboksinq üzrə “Heydər Əliyev kuboku” uğrunda turnir başa çatıb



***Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş “Heydər Əliyev kuboku” uğrunda kikboksinq üzrə uşaq, yeniyetmə və gənclər arasında muxtar respublika turniri başa çatıb.***

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən turnirdə 80-ə yaxın idmançı mübarizə aparıb. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Kikboksinq Federasiyasının birgə təşkil etdiyi turnir iki gün davam edib.

Turnir ərzində idmançılar müəyyən edilmiş yaş və çəki dərəcələrində rinqə çıxıblar. 8-12 yaşa qədər kadetlərin mübarizəsində Akif İsmayılov (Naxçıvan), Uğur Əliyev (Naxçıvan), Məhəmməd İsmayılzadə (Naxçıvan), Şəmsəddin Əliyev (Naxçıvan) və Zeynalabdin Musayev (Şərur) müvafiq olaraq 25, 30, 35, 40, 45+ kiloqram çəki dərəcələrində qalib adını qazanıblar.

Elton Səfərli (Kəngərli) və Qənbər Nağıyev (Culfa) isə 12-15 yaşlı uşaq idmançıların mübarizəsində 45 və 51 kiloqram çəki dərəcələrində birinci yerə layiq görülüblər. 15-17 yaşlı yeniyetmə idmançılar 57 kiloqram çəki dərəcəsində mübarizə aparıblar ki, bu çəkidə Fərman Rzayev (Naxçıvan) hamıdan güclü olub.

Gənclər arasında isə idmançılar 3 çəki dərəcəsində (60, 65 və 71 kiloqram) rinqə çıxıblar. Müvafiq olaraq Elcan Qənbərli (Şərur), Rauf Həsənov (Şərur) və Yusif Quluzadə (Babək) rəqiblərini məğlub edərək turnirin qalibi olublar.

25 kiloqram çəki dərəcəsində qızların mübarizəsi də yaddaqalan olub. Belə ki, 10-a yaxın qızın rinqə çıxdığı turnirdə Röya Abdullayeva (“Turan” döyüş klubu) qalib adını qazanıb. Babək təmsilçisi Fidan Yunisli ikinci, “Turan” döyüş klubunun digər yetirməsi Fidan Paşayeva isə üçüncü olublar.

Turnirin yekun nəticəsinə əsasən komanda hesabında “Naxçıvan” komandası “Heydər Əliyev kuboku”nun qalibi olub. Digər iki pillədə isə “Şərur” komandası və “Turan” döyüş klubu qərarlaşıblar.

Sonda qaliblər diplom, kubok və hədiyyələrlə mükafatlandırılıblar.

**Ceyhun MƏMMƏDOV**

## Tələbələr əsgərlərimizlə görüşüblər

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Texniki və Tibb kolleclərinin tələbələri Əlahiddə Ümumqoşun Ordunun ön xətdə yerləşən hərbi hissəsində olublar. Şəxsi heyətin sosial-məişət şəraiti, əsgər və zabit yataqxanası, yeməkxana, sinif otaqları, əşya və ərzaq anbarı, idman zalı ilə tanışlıq zamanı tələbə-gənclərə ümumi məlumat verilib. Hərbi hissənin idman şəhərciyində fiziki hazırlıq dərsləri praktik olaraq göstərilib. Qonaqlara minaatanlar, tank əleyhinə vasitələr, snayper tüfəngləri və müxtəlif atıcı silahlar haqqında ətraflı məlumat verilib, onları maraqlandıran suallar cavablandırılıb.



Tədbirdə Kolanı kənd Uşaq Musiqi Məktəbinin kollektivi konsert proqramı ilə çıxış edib, tələbə-gənclər və əsgərlər rəqs ediblər. Daha sonra qonaqlar şəxsi heyətlə birgə nahar ediblər.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 398